*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 26 sentyabr 2020-ci il № 61 (2479) Qiyməti 30 qəpik


# BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclas keçirilib

## Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev iclasda videoformatda çıxış edib

*Sentyabrın 21-də BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclas keçirilib. Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev iclasda videoformatda çıxış edib.*



AZƏRTAC xəbər verir ki, iclasda ümumilikdə 182 ölkənin dövlət və hökumət başçısı videoformatda çıxış edəcək. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı sayca altıncı idi. Dünya üzrə 182 ölkə arasında Azərbaycanın dövlət başçısının sayca altıncı çıxış etməsi şübhəsiz ki, Prezident İlham Əliyevə həm Azərbaycanın dövlət başçısı, həm də Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq səviyyədə göstərilən hörmət və etimadın təzahürüdür.

Qeyd edək ki, dövlətimizin başçısı çıxışını iki hissədə - Qoşulmama Hərəkatının sədri və Azərbaycan Prezidenti kimi etdi.

- Cənab Sədr.

Cənab Baş katib.

Azərbaycan Respublikası 120 ölkənin yekdil qərarı ilə 2016-cı ildə Qoşulmama Hərəkatının sədri seçilmişdir. 2019-cu ilin oktyabrında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində Bakıda keçirilmiş 18-ci Zirvə toplantısında Azərbaycan sədrliyi öz üzərinə götürmüşdür.

Bu çıxışımı Qoşulmama Hərəkatına üzv dövlətlərin adından etməyə şərəf duyuram.

Qoşulmama Hərəkatına üzv dövlətlər BMT Nizamnaməsinin imzalanmasının 75-ci ildönümünə həsr edilmiş bu Yüksək Səviyyəli İclasın keçirilməsini yüksək qiymətləndirirlər.

BMT, onun nizamnaməsi və beynəlxalq hüquq dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanılmasında və beynəlxalq əməkdaşlığın gücləndirilməsində mühüm və əvəzolunmaz alətlərdir. Məhdudiyyətlərinə baxmayaraq, BMT hazırda bütün ölkələrin qarşılaşdığı qlobal məsələ və çağırışların müzakirəsi üçün çoxtərəfli mərkəzi forum olmaqda davam edir.

Qoşulmama Hərəkatı təsdiq edir ki, narahatlıq doğuran yeni sahələr və çağırışlar meydana gəlib. Burada BMT Nizamnaməsinin prinsip və məqsədlərinin, beynəlxalq hüququn prinsiplərinin bərqərar olunması və qorunması üçün beynəlxalq ictimaiyyət tərəfindən müvafiq öhdəlik yenidən nümayiş etdirilməlidir.

İnsan hüquqlarının pozulması, maliyyə böhranları və ekologiyanın pisləşməsi ilə müşahidə olunan silahlı münaqişələr, təcavüzkar ekspansionist siyasətlər, terrorçuluq, separatizm, beynəlxalq mütəşəkkil cinayətkarlıq və ekstremizm dünyada milyonlarla insana mənfi təsir etməkdə davam edir.

Bu gün dünyanın hər zaman olduğundan daha çox beynəlxalq hüquqa hörmət və bunu təmin etmək iqtidarında olan səmərəli qlobal təsisatlara ehtiyacı var. Bu baxımdan Qoşulmama Hərəkatının rolu mühüm əhəmiyyətə malikdir. Özünün tarixi boyunca Qoşulmama Hərəkatı beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsində fundamental rol oynamış və davamlı olaraq beynəlxalq hüququn norma və prinsiplərinə ciddi riayət edilməsinə çağırmışdır. Qoşulmama Hərəkatı BMT-nin rolunun gücləndirilməsinə çox böyük əhəmiyyət verir və onun potensialından tam istifadə olunması üçün səylərin göstərilməsini vacib hesab edir.

Yaranmasının 75-ci ildönümündə biz BMT-nin gücləndirilməsi və müasirləşdirilməsi, Baş Assambleyanın canlandırılması, beynəlxalq sülh və təhlükəsizlik sahəsində təşkilatın demokratik, məsuliyyətli, universal və təmsilçiliyi təmin edən orqanı kimi nüfuzunun möhkəmləndirilməsi, habelə müasir geosiyasi reallıqlara cavab verən daha demokratik, məhsuldar, səmərəli, şəffaf və təmsilçiliyi təmin edən orqana çevrilməsi üçün BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasına çağırırıq.

BMT universal üzvlüyü təmin edən yeganə qlobal təsisatdır və beləliklə də dayanıqlı inkişafa nail olunması məqsədilə qlobal iqtisadi idarəçiliyi əhatə etmək iqtidarındadır. Bu səbəbdən BMT-nin qlobal iqtisadi idarəçilikdə rolu gücləndirilməlidir. Qlobal iqtisadi idarəçilikdə müvafiq rolu oynamaq üçün təşkilat çərçivəsindəki proseslərə, multilateralizmə və onun təməl dəyərlərinə sadiqlik baxımından bütün üzvlərin siyasi iradəsi olduqca əhəmiyyətlidir.

Bu gün davam edən COVID-19 pandemiyası multilateralizmin əhəmiyyətini bir daha nümayiş etdirir.

Qoşulmama Hərəkatı artmaqda olan, BMT Nizamnaməsini və beynəlxalq hüququ sarsıdan, birtərəflilik və birtərəfli tədbirlərdən istifadə halları ilə bağlı ciddi narahatlığını vurğulayır, ədalətli, bərabərhüquqlu dünya nizamının və qlobal demokratik idarəçiliyin yaradılması üçün BMT-nin Nizamnaməsinə və beynəlxalq hüquqa ciddi riayət olunması vasitəsilə multilateralizmin və BMT çərçivəsində çoxtərəfli qərar qəbul olunması prosesinin təşviqi, qorunması, canlandırılması, islahatların aparılması və gücləndirilməsinə sadiqliyini bir daha qeyd edir.

Bu il Qoşulmama Hərəkatı üçün də əlamətdardır, çünki biz Hərəkatın təməl prinsiplərini özündə əks etdirən Bandunq Bəyannaməsinin qəbul edilməsinin 65 illiyini qeyd edirik.

Qəbul edildiyi gündən Bandunq Prinsipləri onlara sadiqliyini bəyan edən dövlətləri Soyuq müharibə dönəmində istiqamətləndirmişdir. Soyuq müharibədən sonra qarşı-qarşıya dayanan iki blokun mövcud olmaması Bandunq Prinsiplərinin əhəmiyyətini və qüvvəsini heç də azaltmayıb. Əksinə, sülh və inkişafa dair mürəkkəb çağırışların fonunda onlar bu gün hər zaman olduğundan daha əhəmiyyətlidir.

Hər iki ildönümü bizə BMT Nizamnaməsində və Bandunq Bəyannaməsində əks olunmuş əsas hədəflərə nail olmaq istiqamətində əldə etdiyimiz tərəqqini nəzərdən keçirməyə və bizə - BMT-yə üzv olan dövlətlərə meydana çıxmaqda davam edən çoxşaxəli çağırışlara ümumi baxışla və gücümüzü səfərbər etməklə necə cavab verəcəyimiz üzərində düşünməyə imkan yaradacaq.

Təşəkkür edirəm.

**(Ardı 2-ci səhifədə)**

# BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclas keçirilib

(Əvvəli 1-ci səhifədə)

İndi isə mən Azərbaycan adından çıxış edirəm.

Cənab sədr, cənab Baş katib.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatına üzv olmuşdur. Müstəqillik ən yüksək dəyərdir və Azərbaycan xalqının hər zaman azad və müstəqil dövlətdə yaşamaq ümidinin və istəyinin təzahürüdür. Təqribən 30 illik müstəqilliyi dövründə Azərbaycan müxtəlif sahələrdə çox böyük tərəqqiyə nail olmuşdur.

Bütün üzv dövlətlər BMT Nizamnaməsinə qoşulmaqla hər hansı bir ölkənin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşı güclə hədələməkdən və gücün tətbiqindən çəkinmək öhdəliyini götürmüşlər. Lakin Ermənistan öz öhdəliklərini kobud şəkildə pozmuş və Azərbaycana qarşı hərbi güc tətbiq etmişdir. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf yeddi rayonunu işğal etmişdir. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamaqda davam edir.

Ermənistan işğal olunmuş ərazilərdə azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə həyata keçirmişdir. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan Xocalı soyqırımını törətmişdir. Ondan çox ölkə Xocalı soyqırımını tanımışdır. Ermənistan işğal olunmuş ərazilərdə beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq qanunsuz məskunlaşdırma siyasəti həyata keçirir. Ermənistan işğal olunmuş ərazilərdə Azərbaycan xalqına məxsus tarixi və dini abidələri məhv edib.

Ermənistan qoşunların təmas xətti və Ermənistan-Azərbaycan sərhədi boyunca mülki əhalini qəsdən hədəf alır və təxribatlar törədir. Ermənistan sonuncu təxribat aktını iyul ayında Ermənistan-Azərbaycan sərhədində törətdi. Azərbaycanın Tovuz rayonunun artilleriya atəşinə məruz qalması nəticəsində hərbçilərimiz və bir mülki şəxsimiz öldürüldü, mülki infrastruktura ciddi zərər vuruldu. Ermənistanın diversiya dəstəsi təmas xəttini keçməyə cəhd etmişdir. 2020-ci il avqustun 23-də həmin dəstənin başçısı Azərbaycan hərbçiləri tərəfindən yaxalanmışdır. O, dəstə tərəfindən azərbaycanlı hərbçilər və mülki vətəndaşlara qarşı terror aktlarının törədilməsinin planlaşdırıldığını etiraf etmişdir.

Ermənistanın baş naziri ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir. O, danışıqlar prosesində əsassız şərtlər irəli sürür. Onun Azərbaycana qarşı irəli sürülmüş qəbuledilməz "yeddi şərti" tərəfimizdən rədd edilmişdir. Sülhə nail olunması üçün bizim yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır.

Ermənistanın baş naziri Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan etmişdir. Bu, Ermənistan rəhbərliyinin yeni təcavüzkar niyyətini açıq şəkildə nümayiş etdirir. Ermənistanın müdafiə naziri Azərbaycanı "yeni ərazilər uğrunda yeni müharibə" bəyanatları ilə hədələyir.

Nasizmin şöhrətləndirilməsi Ermənistanın dövlət siyasətidir. Mənfur nasist general Qaregin Njde milli qəhrəmana çevrilib. Ermənistanın rəsmi ideologiyasında "Azərbaycanofobiya" siyasəti hökm sürür. Gənc nəslə Azərbaycan xalqına nifrət aşılanır. Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib. Milli təhlükəsizlik strategiyasında irqçi, şovinist və "Azərbaycanofob" fikirlər əks olunub.

Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edirik.

Təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməlidir.

Azərbaycan BMT ilə səmərəli əməkdaşlıq qurmuşdur. Ölkəmiz 155 dövlətin dəstəyi ilə 2012-2013-cü illərdə Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmişdir. Bundan əlavə, hazırda Azərbaycan 120 dövlətin yekdil dəstəyi ilə Qoşulmama Hərəkatına sədrlik edir.

Qoşulmama Hərəkatının COVID-19-a qarşı onlayn formatda Zirvə görüşü təşəbbüsümüz əsasında 2020-ci ilin may ayında keçirildi. Zirvə görüşündə mən Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizə üzrə dövlət və hökumət başçıları səviyyəsində Xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etdim. Bu təşəbbüsü 130-dan çox ölkə dəstəklədi.

BMT Baş Assambleyasının 31-ci xüsusi sessiyası cari il iyulun 10-da çağırılmışdır. Hesab edirəm ki, xüsusi sessiya zamanı dövlət və hökumət başçıları səviyyəsində ümumi müzakirələr pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaqdır. Həmçinin onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə böyük töhfə verəcəkdir.

Həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanda COVID-19 ilə bağlı vəziyyət nəzarət altındadır. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Biz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar həcmində könüllü maliyyə töhfələri etmişik. COVID pandemiyası ərzində Azərbaycan 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib.

Azərbaycan mədəniyyətlərarası dialoqun təşviqində vacib rol oynayır. Azərbaycan dünyanın tanınmış multikulturalizm mərkəzlərindəndir. 2008-ci ildə Azərbaycan tərəfindən başlanılmış "Bakı Prosesi" mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi məqsədini daşıyır. "Bakı Prosesi" İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv dövlətləri bir araya gətirib. İki ildən bir Azərbaycanda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT Baş Assambleyasının qətnamələri ilə mədəniyyətlərarası dialoqun təşviqi üçün əsas qlobal platforma kimi tanınmışdır.

2016-cı ildə BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu Azərbaycanda keçirilmişdir. Bundan əlavə, Azərbaycan 2015-ci ildə ilk Avropa Oyunlarını və 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarını təşkil etmişdir. Həmin idman yarışları da mədəniyyətlərarası dialoqa mühüm töhfə olmuşdur.

Azərbaycan sabit, müasir və demokratik ölkədir. Demokratiyanın inkişafı və insan hüquqlarının qorunması hökumətimizin başlıca prioritetləri sırasındadır. Bütün fundamental hüquqlar, o cümlədən ifadə azadlığı, media azadlığı, toplaşma azadlığı, dini etiqad azadlığı və vətəndaş cəmiyyətinin inkişafı tam şəkildə təmin edilir. Bir neçə ay öncə biz geniş siyasi dialoq təşəbbüsünü başlatmışıq. Bütün əsas siyasi partiyalar həmin təşəbbüsü dəstəkləyib. Uğurla başlayan bu siyasi dialoq bizim siyasi sistemimizi gücləndirəcək və Azərbaycanın dayanıqlı inkişafının təmin olunması işinə xidmət edəcəkdir.

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmiş və son 17 ildə ümumi daxili məhsul üç dəfə artmışdır. Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında böyük tərəqqi əldə etmiş Azərbaycan qısa vaxt ərzində BMT-yə iki dəfə könüllü milli hesabat təqdim edən azsaylı ölkələrdən biridir. "2020-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatı"nda yer almış "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi"nə görə Azərbaycan 166 ölkə arasında 54-cü yerdədir.

Əminəm ki, hazırkı müzakirələrimiz zamanı biz multikulturalizmin və beynəlxalq əməkdaşlığın simvolu olan BMT-yə açıq və güclü dəstək verəcəyik. Azərbaycan BMT-nin daha da güclənməsi, onun beynəlxalq münasibətlərdə əhəmiyyətinin və nüfuzunun yüksəlməsi üçün digər dövlətlərlə birgə işləməyə hazırdır. Sağ olun.

# Artilleriya bölmələrinin döyüş atışlı təlimləri keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, Raket və Artilleriya birləşmələrinin döyüş atışlı taktiki təlimləri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlimlərin məqsədi artilleriya bölmələrinin idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsi, peşəkarlığın artırılması, döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması və digər qoşun növləri ilə qarşılıqlı fəaliyyətin təşkilidir.

Cəmləşmə rayonlarına çıxarılan artilleriya bölmələri döyüş atışlarını yerinə yetirmək üçün atəş mövqelərini tutublar.

Raket və Artilleriya Qoşunlarının müxtəlif bölmələri təlimin ssenarisinə uyğun olaraq ehtiyat mövqelərə yerdəyişmə etdikdən sonra döyüş atışları icra edərək şərti düşmən hədəflərini məhv ediblər.

# HHQ-nin təlim-döyüş uçuşları keçirilir



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, Hərbi Hava Qüvvələrinin (HHQ) gecə və məhdudgörmə şəraitində təlim uçuşları keçirilib.

Ssenariyə əsasən, Su-25 və MiQ-29 tipli təyyarələr havaya qalxma və yerə enmə, şərti hava və yer hədəflərinin məhv edilməsi, kiçik və orta hündürlüklərdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqları icra ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, uçuşlar zamanı əsas diqqət müxtəlif hündürlüklərdə və sürətlərdə hücum və müdafiə manevrlərindən istifadə edərək pilotaj texnikasına yönəldilib. Müasir manevrli hava döyüşlərinin aparılması üzrə tapşırıqların yerinə yetirilməsi zamanı təyyarələrin ekipajları növbə ilə düşmənin yer hədəflərinin aşkarlanması və məhv edilməsi tapşırıqlarını icra ediblər. Təlimlər zamanı pilotlar, həmçinin şərti düşmənin yerüstü hədəflərinin koordinatlarını təyin etməklə hava kəşfiyyatı da həyata keçiriblər.

Təlimlərdə qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

# Naxçıvan Qarnizonu Qoşunlarında təşkil edilən kurslar başa çatıb



Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan növbəti kursların başa çatması münasibətilə buraxılış mərasimi keçirilib. Kursları uğurla bitirənlər müxtəlif hərbi vəzifələrə təyin olunublar.

Mərasimdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirildikdən sonra polkovnik Mehman Gülməmmədov kurslar zamanı hər bir kursantın müasir hərb elminə aid yeni biliklərə yiyələndiyini və praktiki vərdişlərinin təkmilləşdirildiyini qeyd edib.

Məzunlar adından Kamil Quliyev kurslarda qazandıqları yeni taktiki bilikləri döyüş tapşırıqlarının icrası zamanı uğurla tətbiq edəcəklərinə söz verib.

Naxçıvan Qarnizonunun rəisi general-polkovnik Kərəm Mustafayev şəxsi heyəti təbrik edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsi nəticəsində bu gün işğal olunan torpaqlarımızı düşməndən azad etməyə qadir olan peşəkar ordumuz formalaşıb. Muxtar respublikamızın etibarlı müdafiəsini təmin edən Naxçıvan Qarnizonu Qoşunlarında peşəkar hərbçilərin yetişdirilməsi ordu quruculuğu istiqamətində görülən işlərin, dövlət qayğısının və xalq-ordu birliyinin bəhrəsidir. Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təliminin birinci mərhələsinin icrasına nəzər salsaq görərik ki, hərbi qulluqçuların tapşırıqları peşəkarcasına yerinə yetirməsi kurslarda qazanılanların nəticəsidir.

Çıxışların ardından məzunlara sertifikat və hədiyyələr təqdim edilib.

Xatirə lövhələrinə buraxılış emblemləri vurulub, məzunların yeni vəzifələrə təyin olunmaları ilə bağlı əmrlər mərasim iştirakçılarına çatdırılıb və tribuna önündən təntənəli keçid olub.

**Baş leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

# Tank bölmələri artilleriya ilə qarşılıqlı fəaliyyətdə təlim-döyüş tapşırıqlarını icra edirlər



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, tank və artilleriya bölmələri ilə döyüş hazırlığı üzrə məşqlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, məşqlərin məqsədi tank və artilleriya bölmələrinin şəxsi heyətinin peşəkarlığının artırılması, döyüş əməliyyatlarının planlaşdırılması və icrası zamanı qarşılıqlı fəaliyyət vərdişlərinin təkmilləşdirilməsidir.

Döyüş uzlaşması zamanı fəaliyyət göstərən bölmələr atəş mövqelərini tutublar.

*Sabah tezdən gedəcəyimiz istiqamətləri, yurdumuzun keşiyində dayanan əsgərlərlə görüşəcəyimiz bölmələri zabit Rəşad Gülməmmədov hələ axşamdan müəyyənləşdirmişdi. Həmin istiqamətlərdə ötən il olduğumdan ərazini və yolları yaxşı tanıyırdım. Bu yollar, bu dağlar, bu dərələr mənə çox əziz və doğmadır. İnsan ona doğma olan hər şeyi ləngimədən, tez bir zamanda görmək istəyir. Bu istək ürəyimi telləndirdikcə sabahın həmişəki vaxtından tez açılmasını istəyirdim...*

*Ön xətdən reportaj*

# Əsgərlərin döyüş əzmi, qələbə ruhu yüksəkdir



Səhərdir. Bir-iki saat əvvəl yer üzündən çəkilmiş qaranlıq yerini gözəl bir yay səhərinə verib. Elə bil Günəş də bu gün üfüqdən bir az tez boylanmağa, səngərlərdə dayanan zabit və əsgərlərimizi həmişəkindən tez salamlamağa tələsir. Yəqin ki, hərbçilərimiz də Günəşi salamlamaq üçün onun üfüqdən yuxarı qalxmağını gözləyir. İllərdir həyat bu axarı ilə davam edir. Təbiətin nizamını, səliqə-sahmanını heç bir qüvvə pozub dəyişə bilmir. Səhər-səhər seyr etdiyimiz gözəlliklər ovqatımıza yeni rəng çalarları qatır. Gördüklərimiz qəlbimizdə xoş duyğular oyadır. Elə qəlbimizə hakim kəsilmiş bu xoş duyğularla da səngərlərə - yurdumuzun keşikçilərinin yanına tələsirik.

Dünyaya gözümüzü açandan yolların müqəddəs olduğunu eşitmişik. Bir-birinə bənzəməyən bu müqəddəs yollar bizi qolları üstünə alıb irəli - yurdumuzun müdafiəçilərinin yanına aparır. Səliqə ilə çəkilmiş və kənarlarında ağaclar, çiçək kolları əkilmiş yollarla ön xəttə gedirik. Cəbhə xəttinə yaxın olan yaşayış məntəqələrinin içindən keçirik. Azərbaycan Ordusunun gücünə arxalanan sakinlər bir an olsun belə gündəlik işlərindən qalmırlar. Ordumuzun hissələri onların təhlükəsizliyini qoruyur. Ona görə də yerli camaat arxayın təsərrüfatında işləyir, yavaş-yavaş qış tədarükü görür.

Dəqiqələr bir-birini əvəz etdikcə yaşayış məntəqələri arxada qalır. Çox keçmir ki, bizi ön xəttə aparan hərbi avtomobil geniş ərazidə dövrə vurub dayanır. - Çatdıq, - deyə zabit Rəşad Gülməmmədov bildirir və cəld addımlarla maşından düşür. Biz də onun arxasınca aşağı enirik. Ayağımız torpağa dəyən kimi özümüzü daha güclü və qüvvətli hiss edirik. İdman qurğuları quraşdırılmış geniş həyət elə ilk dəqiqədən səliqə-sahmanı ilə diqqətimizi özünə çəkir. Əsgərlər yaxınlığımızdan keçib səngərlərə doğru gedirlər.

Zabit və əsgərlərlə görüşmək üçün mövqelərimizə yaxınlaşırıq. Burada hər addımda müharibənin ab-havası duyulur. Barıt qoxusu burnumuzu qıcıqlandırır. Səngərlərdə yurdumuza keşik çəkən, üz-gözündən igidlik və cəsarət yağan oğulları gördükcə ürəyimiz dağa dönür. Bir daha əmin oluruq ki, Vətən etibarlı əllərdədir, əsgərlərimiz torpaqlarımızı erməni işğalçılarından göz bəbəkləri kimi qoruyurlar.

Baş leytenant Ramin Siraclı ilə söhbət edirik. Gənc zabit əsgərlərinin nümunəvi xidmətindən ətraflı söz açır, ürəkdolusu danışır. Bildirir ki, bu gün biz hərbçilər yurdumuzun keşiyində dayanmışıq. "Bu müqəddəs vəzifəni yüksək səviyyədə yerinə yetirməyə çalışırıq. Daim düşmənin nəzarətində olan ərazilərdə müşahidələr aparır, erməni işğalçılarının hərəkətlərinə göz qoyuruq. Döyüş hazırlığı yüksək səviyyədə olan əsgərlərimiz xidmətlərinə böyük məsuliyyətlə yanaşırlar. Atəşkəs rejimini pozub təxribat törətmək istəyən işğalçıların qarşısı qətiyyətlə alınır. Erməni qəsbkarları gücümüzü, qüdrətimizi hər addımda hiss edir və qarşımızda duruş gətirə bilməyərək itki verib geri çəkilməyə məcbur olurlar. Vətənpərvərlik hissləri yüksək olan əsgərlərimiz Qarabağ uğrunda gedəcək döyüşlərdə qələbə əzmi ilə, düşməni məhv etmək amalı ilə vuruşacaqlar. İnanıram ki, şəxsi heyətin igidliyi və qəhrəmanlığı sayəsində qəsbkarları yurdumuzdan qovacaq, işğala son qoyacağıq. Ondan sonra torpaqlarımız rahat nəfəs alacaq, köçkünlər doğma ocaqlarına qayıdacaqlar. Bütün bunları Azərbaycan əsgərinin qəhrəmanlığı və hünəri təmin edəcək. Azərbaycan əsgəri cəsarəti ilə qəhrəmanlıq tariximizə bir-birindən şərəfli səhifələr yazacaq."

- Bu gün Vətənin keşiyində dayanmaqdan qürur duyuram, - deyə əsgər İbrahim İmanov söhbətimizə qoşulur. - Ona görə qürur duyuram ki, mən Vətənin əsgəriyəm, yurdumu erməni işğalçılarından qoruyuram. Hərbi xidmət günlərim ömrümün ən şərəfli anlarıdır. Mən bu günləri bütün ömrüm boyu qürur hissi ilə xatırlayacam. Şərəf dolu günlər yaşamağı bütün əsgərlərə arzu edirəm. Xidmətimin ilk günlərindən silahları həvəslə öyrənirdim. Məşğələdən məşğələyə təcrübəm və səriştəm artırdı. Xidmətimin hər gününü uğurla başa vurmağa çalışırdım. Çalışqanlığım müsbət nəticələr verirdi. Silahların taktiki-texniki xüsusiyyətlərini mükəmməl mənimsədiyimdən indi erməni işğalçılarını çətinlik çəkmədən bir göz qırpımında dəqiq atəşlə məhv etməyə hazıram. Müşahidə məntəqəsindən tarixi torpaqlarımıza ürək ağrısı ilə baxıram. O yerləri qəsbkarlardan azad etmək üçün hər an döyüşə hazıram. Mən doğmalarımın yanına qalib əsgər kimi qayıtmaq istəyirəm. İstəyirəm ki, döyüşlərdə göstərəcəyimiz qəhrəmanlıqlar dildən-dilə düşsün, eldən-elə dolaşsın.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İlkin Hüseynov söhbətə ordumuz üçün uğurla başa çatan Tovuz döyüşlərindən başlayır. Deyir ki, biz əsgərlər erməni qəsbkarlarının iyulun 12-də Azərbaycanın dövlət sərhədini Tovuz istiqamətindən pozub yurdumuza hücum etməsini qəzəb və hiddətlə qarşıladıq. "Hadisələrin gedişini diqqətlə izləyir, baş verənlərdən vaxtlı-vaxtında xəbər tuturduq. Ordumuzun zabit və əsgərlərinin döyüşlərdə göstərdiyi qəhrəmanlıq və hünər, qazandığı qələbə bizi çox sevindirdi. Həm 2016-cı ilin aprel, həm də 2020-ci ilin iyul döyüşləri bir daha göstərdi ki, ordumuzun gücü, qüdrəti yenilməzdir. Qoy erməni qəsbkarları bir daha bilsinlər ki, Azərbaycan əsgəri heç kimin kömək və dəstəyi olmadan yurdunu işğaldan azad etməyə hazır və qadirdir. İstər aprel, istərsə də Tovuz istiqamətindəki uğurlu döyüşlər bizi sonda Böyük Qələbəyə qovuşduracaq. Zabitlərin də, əsgərlərin də döyüş ovqatı, qələbə əzmi yüksək səviyyədədir. Düşmən bu əzmin, bu gücün qarşısında heç vaxt duruş gətirə bilməyəcək."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Müzəffər Dünyamalıyev, əsgərlərdən Yusif Əliyev, Şahin Xuduyev, Elçin Tağıyev, Azər Abbaszadə, Tarıyel Rəhimov, Fərid Nuruzadə və başqaları ilə də söhbət edirik. Onların vətənpərvərlikdən yoğrulmuş söhbətlərinə maraqla qulaq asırıq. Silaha sarılıb yurdumuza keşik çəkən, üz-gözündən igidlik yağan oğulların sözlərindən, fikirlərindən qələbə əzmi duyulur.

İnanıram ki, yurdumuzun keşiyində ayıq-sayıq dayanan oğullarımız içdikləri Hərbi anda, verdikləri vədlərə həmişə sadiq qalaraq, torpaqlarımızın erməni işğalçılarından azad olunması uğrunda cəsarət və hünərlə vuruşacaq, qələbələri ilə xalqımızı sevindirəcəklər.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Naxçıvanda tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı sistemində məşğələlər keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "Naxçıvan Qarnizonu Qoşunlarının 2020-ci tədris ilinə uzlaşma planı"na əsasən tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı sistemində məşğələlər keçirilib.*



Komandir hazırlığı məşğələlərində əsas diqqət zabitlərin nəzəri biliklərinin möhkəmləndirilməsinə, bölmələrin idarə edilməsində praktiki vərdişlərinin təkmilləşdirilməsinə və keçirilən tədbirlərin təşkilinə yaradıcılıqla yanaşılmasında özünəinam hissinin aşılanmasına yönəldilib.

Toplantının 3-cü günündə hərbi hissələrin komandirlərinin və digər vəzifəli şəxslərinin cəlb edilməsi ilə "Müdafiənin təşkilində mövcud problemlər və onların aradan qaldırılması" mövzusunda konfrans keçirilib.

# Zirehli texnikaların ekipajları döyüş vərdişlərini təkmilləşdirirlər



Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, piyadaların döyüş maşınları (PDM), zirehli transportyorlar (ZTR) və digər döyüş maşınlarının ekipajları döyüş vərdişlərini təkmilləşdirirlər.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ümumqoşun poliqonlarının təlim nöqtələrində zirehli texnikaların ekipajlarından ibarət şəxsi heyət atış hazırlığı üzrə normativləri yerinə yetirir.

Keçirilən təlim məşqlərinin əsas məqsədi şəxsi heyətin döyüş hazırlığının artırılması, döyüş maşınlarının çətin keçilən ərazilərdə idarə edilməsi və real döyüş şəraitində tətbiqi üzrə vərdişlərin təkmilləşdirilməsidir.

# “Azərbaycan xalqı tarixi torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcək”

*Milli Məclisin sədri Sahibə Qafarova sentyabrın 23-də Rusiyaya səfəri çərçivəsində Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasında çıxışı zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivləri barədə danışıb.*

Sədr deyib: "Azərbaycan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn tanınmış norma və prinsipləri, ilk növbədə, dövlətlərin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı əsasında həllində dinc diplomatik səylərə daim sadiq qaldığını nümayiş etdirir. Təəssüf ki, Azərbaycan tərəfinin problemin sülh yolu ilə həlli istiqamətində bütün səyləri müxtəlif təxribatlara və hərbi ritorikaya üstünlük verən Ermənistan hakimiyyətinin qeyri-konstruktiv siyasəti nəticəsində puç olur. Məsələn, Azərbaycanın mülki obyektlərinə zərbələr endirilməsinə dair təhdidlərə necə qiymət vermək olar?

Azərbaycan heç vaxt başqasının torpağına iddia etməyib. Azərbaycan xalqı özünün tarixi torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına heç zaman imkan verməyəcək".

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**25 sentyabr 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 61 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqepar, Mosesqex, Çinari, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Hacallı, Əlibəyli, Ağdam, Koxanəbi, Əsrik Cırdaxan, Ağbulaq və Muncuqlu kəndlərində, Çəmbərək rayonunun Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# “Düşmənin istənilən hədəfini məhv etməyə qadirik”



Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinin artilleriya divizionunda döyüş hazırlığının yüksək səviyyədə olduğunun şahidi olduq. Təlim meydanında canlanma hiss olunurdu. Geniş ərazidə təlim keçib döyüş hazırlığını artıran topçularımız müəyyən olunmuş müxtəlif döyüş tapşırıqlarını məşq edir, təcrübə və səriştələrini artırırdılar. Dərs prosesində şəxsi heyətə əmr və tapşırıqlarını verən baş leytenant Yasin İbrahimovla tanış olduq. Zabit Yasin İbrahimov bildirdi ki, şəxsi heyət hazırda batareya müdafiədə tapşırığını icra edir. “Eyni zamanda, şəxsi heyət "döyüşə" və "səfərə", hədəfləri tuşlama normativlərini də yerinə yetirir. Artilleriya ixtisası riyaziyyat və həndəsə elmləri ilə sıx bağlıdır. Hələ orta məktəbdə oxuyarkən bu fənlərə xüsusi marağım olub. Oxuduğum sinifdə ən çətin və məntiqi misalları hamıdan birinci mən həll edirdim. Torpaqlarımızın dar günündə mən də digər Vətən müdafiəçiləri kimi riyazi biliklərimi nəzərə alaraq bu sahədə daha yararlı olacağıma inanıram".

- Müasir dövrdə döyüş tapşırıqlarının düzgün və vaxtında yerinə yetirilməsi hər bir zabit, gizir və əsgərdən yüksək nəzəri-hərbi biliklə yanaşı, fiziki və mənəvi-psixoloji hazırlıq da tələb edir, - deyə zabit sözünə davam etdi. - Odur ki, döyüşdə uğur qazanmaq üçün müasir silahlara malik olmaq hələ tam yetərli deyil. Əsas bu silahlardan istifadə qaydalarını peşəkarcasına öyrənmək, fiziki cəhətdən hazırlıqlı olmaq, qazanılan nəzəri-təcrübi biliklərdən düşmənin canlı qüvvəsini və hərbi texnikasını məhv etmək üçün maksimum səmərəli istifadə etməkdir. Hücuma hazırlıq zamanı toplardan açılan sərrast atəş döyüşün taleyini həll edir. Hər zaman artilleriya imkanlarına malik ordular möhtəşəmliyi və məğlubedilməzliyi ilə seçilib. Torpaqlarımızın işğalçılardan təmizlənməsində üzərimizə böyük məsuliyyət düşür. Biz də öz növbəmizdə digər qoşun növlərinin səmərəli hücum strategiyasını təmin etməli, dəqiq koordinatlar əsasında düşmənin istehkam qurğularını, artilleriya batareyalarını, sığınacaqlarını, eləcə də digər strateji hərbi obyekt və məntəqələrini, canlı qüvvəsini məhv etməliyik. Əminliklə deyə bilərəm ki, ən müasir silah-sursat, zirehli maşınlar, tanklar, artilleriya qurğuları və digər texnikalarla təchiz olunan Azərbaycan Ordusu düşmənin istənilən hədəfini məhv etməyə qadirdir.

Keçirilən dərs zamanı çeviklik və bacarıq nümayiş etdirən topçulara yaxınlaşıb onlarla söhbət etdik. Üzərlərinə düşən əsas vəzifənin şəxsi heyətə yüksək bilik və bacarıq aşılamaq olduğunu deyən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ayaz Nəsibli dərsin əhəmiyyətindən söz açdı. "Təlim və dərs proseslərində bütün normativlərin vaxtında və dəqiq yerinə yetirilməsi əsas prinsip kimi götürülür. Çünki artilleriya yüksək dəqiqlik tələb edir. Bizim əsas vəzifəmiz hərbi əməliyyatların aparılması zamanı piyada qüvvələrini atəş dəstəyi ilə təmin etməkdir. Piyada qüvvələrinə yardım etmək üçün onların bizə verdiyi hədəfləri sıradan çıxarmalıyıq. Əsgərlər hərbi texnika ilə necə davranmağın sirlərini yaxından öyrənirlər. Mütəmadi olaraq keçirilən məşğələlər bilavasitə atəş mövqeyində aparılır. Hər birimiz koordinatlar əsasında istənilən hədəfi dəqiq top zərbələri endirməklə məhv etməyi bacarırıq".

Əsgər Mirnurdan Qasımov keçirilən dərslər sayəsində yüksək döyüş hazırlığına malik olduqlarını qeyd etdi. "Praktiki məşğələlərimiz öncədən təyin edilmiş açıq ərazidə, digər dərslərimiz sinif otaqlarında keçirilir. Bundan başqa, bizə təhkim olunan texnika yüksək fiziki güc tələb etdiyindən komandirlərimiz fiziki göstəricilərimizi də diqqət mərkəzində saxlayırlar. İctimai-siyasi hazırlıq dərslərimiz isə mənəvi-psixoloji hazırlığımıza müsbət təsir göstərir. Daim hərbi biliklərimizi artırır, özümüzü bir döyüşçü kimi təkmilləşdirir, üzərimizdə çalışırıq. Komandirlərimizin bizə olan diqqəti yüksək səviyyədədir. Burada yaradılan sosial-məişət şəraiti arzuedilləndir. Bu gün ordu sıralarında xidmət edən hər kəs Vətənə müqəddəs borcunu ödəyir. Xalqımız da əmin olsun ki, Vətənimizi göz bəbəyimiz kimi qoruyacaq, əsgər adını uca tutacaq, millətimizə daim başucalığı gətirəcəyik".

Əsgərlər Nurlan Mirzəyev və Məmməd Bayramlı da Vətənə, xalqa sədaqətlə xidmət etməyin verdiyi qürurdan, müqəddəs yolun yolçusu olmaqlarından danışdılar. Əsgərlərin hər biri Ali Baş Komandanın əmriylə döyüşmək, torpaqlarımızın işğaldan azad ediləcəyi döyüşlərin iştirakçısı olmaq istədiklərini vurğuladılar.

Əminliklə deyə bilərik ki, bu gün ordu sıralarında xidmət edən bilikli və bacarıqlı yüksək döyüş hazırlığına malik hərbi qulluqçularımız torpaqlarımızı düşmən işğalından hər an azad etməyə hazırdırlar.

**Leytenant**
**Oruc MUSTAFAYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Əfsanəvi partizan Əhmədiyyə Cəbrayılova həsr olunmuş "Cəbhədən cəbhəyə" adlı anım tədbiri keçirildi

*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin birgə təşkilatçılığı ilə İkinci Dünya müharibəsi dövründə antifaşist Müqavimət Hərəkatının iştirakçısı əfsanəvi partizan Əhmədiyyə Mikayıl oğlu Cəbrayılovun 100 illik yubileyinə həsr olunmuş "Cəbhədən cəbhəyə" adlı anım tədbiri keçirildi.*



Tədbirdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşları, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin rəhbər heyəti, zabitləri, müəllim və kursantları, kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etdilər.

Ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi mayor İlkin Qayıbov açaraq bildirdi ki, XX yüzilliyin ən dəhşətli və dağıdıcı müharibəsi kimi yadda qalan İkinci Dünya müharibəsində qazanılan qələbəyə Azərbaycan xalqı önəmli töhfələr verib. "Ölkəmizin insan resursları, həm də təbii ehtiyatları faşist Almaniyasına qarşı mübarizəyə səfərbər edilmişdi. Soydaşlarımızın cəbhədə göstərdikləri igidliklərlə hər birimiz fəxr edirik. Onlar doğma Azərbaycanın hüdudlarından çox-çox uzaqlarda böyük mərdlik və fədakarlıqla vuruşurdular. Azərbaycan övladları nəinki müxtəlif cəbhələrdə ölüm-dirim mübarizəsi apararaq qəhrəmanlıq nümunələri göstərib, eyni zamanda, bu və ya digər səbəbdən Avropanın işğal edilmiş digər ölkələrində Müqavimət Hərəkatına qoşularaq partizan kimi vuruşub, faşistlərə sarsıdıcı zərbələr endiriblər. Belə qəhrəman həmyerlilərimizdən biri də cəsur partizan Əhmədiyyə Cəbrayılovdur..."

Zabit qeyd etdi ki, Əhmədiyyə Cəbrayılovun Avropa Müqavimət Hərəkatı zamanı göstərdiyi igidliyini, necə bir qəhrəman olduğunu fransalı yaxın dostu, döyüş yoldaşı Rene Şambarın məktubları bir daha təsdiq edir. "R.Şambar məktubunda özünün Avropa Müqavimət Hərəkatına qoşulmasından, partizan dəstələrinin faşist Almaniyasına qarşı mübarizəsindən, Əhmədiyyə Cəbrayılovun əməliyyatlarda fəal iştirakından bəhs edir. Bu məktublar Əhmədiyyə Cəbrayılovun fəaliyyətinə kölgə salmağa cəhd edən dairələrə verilən daha bir arqumentdir. Əməliyyatlarda fəal iştirak edən həmyerlimizlə Montobanın azad edilməsi zamanı tanış olduğunu yazan müəllif təbeliyində olan Əhmədiyyənin hərbi biliklərini, sədaqətini, igidliyini, qorxmazlığını, səmimi yoldaşlığını yüksək qiymətləndirir..."

Polkovnik Emin Səfərov qeyd etdi ki, bəşəriyyətin XX əsrdə məruz qaldığı qorxunc faşizm təhlükəsindən xilas edilməsində və nasizm üzərində qələbə qazanmasında böyük xidmətlər göstərən Əhmədiyyə Cəbrayılov Azərbaycan xalqının mərd oğlu kimi rəşadətli döyüş yolu keçib. "Onun yüksək bacarıqla həyata keçirdiyi çoxsaylı kəşfiyyat əməliyyatlarındakı misilsiz şücaətləri layiqincə qiymətləndirilərək Fransa dövlətinin orden və medalları ilə təltif edilib, eyni zamanda, həmvətənimizin Müqavimət Hərəkatı iştirakçıları sırasında xatirəsi əbədiləşdirilib...

Bu gün Vətənimizin gələcəyi gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması kimi vacib amillə birbaşa əlaqəlidir. Əhmədiyyə və Mikayıl Cəbrayılovlar kimi qürur duyduğumuz Vətən oğullarının qəhrəmanlığı unudulmur, unudulmayacaq. Onların həyat və döyüş yolu ordumuzun hər bir əsgər və zabitinə ən böyük örnək olmaqla yanaşı, gənclərimizin milli vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynayır. Qəhrəmanların igidlikləri işğal olunan torpaqlarımızı hər an azad etməyə qadir olan Azərbaycan Ordusunun mətin əsgəri üçün hünər və cəsarətin bariz nümunəsidir".

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin zabiti kapitan Fikrət Səmədov və Gülxar Məmmədova çıxış edərək Əhmədiyyə Cəbrayılovun ömür yoluna nəzər saldılar.

Əfsanəvi partizan Əhmədiyyə Cəbrayılova həsr olunan sənədli film nümayiş olundu.

Tədbirin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi maraqlı konsert proqramı təqdim etdi.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# "Qış mövsümünə hazırlıq işləri yüksək səviyyədə davam etdirilir"



*Müasir Azərbaycanda nizami ordu quruculuğu istiqamətində ardıcıl və sistemli islahatlar ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra mümkün oldu. Bu dövrdən başlayaraq Ümummilli Liderin rəhbərliyi altında orduda komplektləşdirilmə, nizam-intizamın və döyüş ruhunun yüksəldilməsi, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində inamlı addımlar atıldı.*



Xalqımızın ümummilli lideri Heydər Əliyevin mütəmadi olaraq ordu sıralarında xidmət edən gənclərlə görüşməsi, onların problemləri ilə yaxından maraqlanması, hərbi təhsil sisteminin yenidən qurulmasına böyük diqqət yetirməsi ordumuzun formalaşmasında mühüm rol oynadı.

Dahi rəhbərimizin ordu quruculuğu istiqamətində yürütdüyü siyasət Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısı son illər ərzində ordumuzun güclənməsi istiqamətində bütün lazımi tədbirlərin həyata keçirilməsini təmin edib. Bu gün Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və sosial-məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silah və texnikalarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. 2016-cı ilin Aprel döyüşləri, 2018-ci ilin Günnüt əməliyyatı və cari ilin Tovuz hadisələri zamanı ordumuz gücünü və işğalda olan torpaqlarımızı qısa müddət ərzində azad etməyə qadir olduğunu bir daha bütün dünyaya göstərdi.

Peşəkarlığı, döyüş ruhu, mənəvi-psixoloji hazırlığı ilə düşmənin istənilən hücumunun qarşısını almağa və istənilən an torpaqlarımızı azad etmək gücünə malik olan şəxsi heyətin məişət şəraiti öndə duran məsələlərdəndir. Azərbaycan əsgəri düşmənlə üzbəüz mövqelərdə döyüş növbəsi çəkir, torpaqlarımızın keşiyində inamla dayanır. Mərd və cəsur oğullarımız istənilən hava şəraitində öz əsgəri vəzifələrini məsuliyyətlə yerinə yetirir, verilən əmr və tapşırıqlara sözsüz tabe olur, keçirilən məşğələlər sayəsində hərbin sirlərinə dərindən yiyələnirlər.

Bu yaxınlarda ordumuzda qış mövsümünə keçidlə bağlı bir sıra təxirəsalınmaz tədbirlər həyata keçirilib. Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində bunun canlı şahidi olduq. Hərbi hissənin zabiti Fariz Hüseynov bildirdi ki, qış mövsümünə hazırlıq işləri yüksək səviyyədə davam etdirilir. "Yüksək dağ massivlərində döyüş növbətçiliyi yerinə yetirən hərbi qulluqçuların ərzaq təminatı, isti geyim və istilik üçün yanacaq ehtiyatı, silah və sursat təchizatı normaya uyğun şəkildə döyüş mövqelərinə çatdırılıb. Bütün işlər Müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına uyğun aparılır. Həmin plana əsasən, silah və texnikalar müəyyən vaxt ərzində mövsümə hazırlanmalıdır. Qarşıya qoyulan tapşırıq isə hərbi hissədə planlı şəkildə həyata keçirilir".

- Silah və texnikanın qış dövründə fasiləsiz və dayanıqlı istismarını təmin etmək məqsədilə bölmələrimiz mərkəzləşdirilmiş qaydada yanacaq-sürtgü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təmin edilib, - deyə zabit sözünə davam etdi.
- Döyüş texnikalarının və hərbi nəqliyyat vasitələrinin yanacaq-sürtgü materialları dəyişdirilərək ən çətin və soyuq iqlim şəraitində istismar olunması üçün döyüşə hazır vəziyyətə gətirilib. Əvvəlki günlərdə artıq texnikalarımızın soyutma sistemləri təmizlənib, radiatorlar yoxlanılaraq saz vəziyyətə gətirilib və yanacaq sistemlərinin çöküntüsü süzülüb. Bundan əlavə, əyləc və ilişmə muftası sistemində maye dəyişdirilib. Nəzərdə tutulan vaxt ərzində silah və texnikalarımız yeni şəraitdə işləməyə hazır olacaq.

F.Hüseynov ön xətdə döyüş növbətçiliyi aparan bölmələrimizin qış mövsümünə tam hazır olduğunu bildirdi. Əlavə etdi ki, hündürlükdə yerləşən mövqelərdə xidmət edən şəxsi heyətin təchizat və təminatı qış ayları ərzində heç bir problem və çətinlik çəkmədən xidmət aparmağa imkan verir. Qış istismar rejiminə keçidlə əlaqədar soyuq iqlim şəraitində, dağlıq-düzənlik ərazidə fasiləsiz xidmət aparmaq üçün hərbi hissələrin döyüş qabiliyyəti artırılır, eləcə də döyüşə hazırlığın yüksək səviyyədə saxlanılması üçün bütün zəruri tədbirlər həyata keçirilir.

Beləliklə, qış mövsümündə şəxsi heyətin düzgün və ayıq-sayıq xidmət aparmaları üçün bütün profilaktik tədbirlər görülür. Bu da əsgərlərimizin döyüş ruhunu və hazırlıqlarını artıran amillərdən biridir.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət.**

**2. Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu.**

**3. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.**

**Mövzu:** Müstəqillik tariximiz. Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti haqqında tarixi materiallardan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

### *Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət*

1917-ci il fevralın 27-də Rusiyada baş verən çevriliş nəticəsində çar II Nikolay taxt-tacdan əl çəkməyə məcbur oldu. Rusiyada hakimiyyət Müvəqqəti Hökumətin əlinə keçdi. 1917-ci il martın 9-da Müvəqqəti Hökumət tərəfindən Zaqafqaziyanın idarə edilməsi üçün Xüsusi İdarə Komitəsi yaradıldı.

Fevral inqilabının siyasi həyata gətirdiyi canlanma nəticəsində Azərbaycanın müxtəlif şəhərlərində müsəlman milli şuraları yaradıldı.

Zaqafqaziya Xüsusi Komitəsi öz fəaliyyətini dayandırdı və noyabrın 11-də Zaqafqaziya Komissarlığı yaradıldı. Komissarlığın tərkibinə Azərbaycandan Məmməd Yusif Cəfərov, Xudadat bəy Məlikaslanov və Xəlil bəy Xasməmmədov təyin edilmişdilər.

1918-ci il fevralın 23-də Tiflisdə Zaqafqaziya Seymi yaradıldı.

### *Azərbaycanın öz müstəqilliyini elan etməsi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət quruculuğu*

1918-ci il mayın 26-da Zaqafqaziya Seymi buraxıldı. Mayın 27-də Tiflisdə Həsən bəy Ağayevin sədrliyi ilə keçirilən və keçmiş Seymin Azərbaycan fraksiyasının 44 nümayəndəsindən 26 nəfərinin iştirak etdiyi iclasda Azərbaycan Milli Şurası yaradıldı və şura Azərbaycanın idarə olunmasını öz üzərinə götürdü. Mayın 28-də Məmməd Əmin Rəsulzadənin sədrliyi ilə Milli Şuranın ilk iclasında Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi haqqında qərar qəbul edildi və "İstiqlal bəyannaməsi"nin mətni təsdiqləndi. İstiqlal bəyannaməsində göstərilirdi ki:

1. Azərbaycan suveren dövlətdir, Azərbaycan xalqının hakimiyyəti altına Zaqafqaziyanın cənub və şərq hissələri daxildir.

2. Müstəqil Azərbaycan dövlətinin hökumət forması Xalq Cümhuriyyətidir.

3. Azərbaycan Xalq Cümhuriyyəti hamı ilə, xüsusən də qonşu millətlər və dövlətlərlə dostluq əlaqələri yaratmaq niyyətindədir.

4. Azərbaycan Xalq Cümhuriyyəti etnik mənşəyindən, dilindən, sinfindən, peşəsindən, cinsindən asılı olmayaraq, sərhədləri daxilində bütün vətəndaşlara tam mülki və siyasi hüquqlar üçün təminat verir.

5. Azərbaycan Xalq Cümhuriyyəti öz ərazisində məskunlaşmış bütün millətlərin azad inkişafını təmin edir.

6. Azərbaycan Müəssislər Məclisi çağırılana qədər Azərbaycan üzərində ali hakimiyyət hamı tərəfindən seçilmiş Milli Şura və bu şura qarşısında cavabdeh olan hökumət tərəfindən həyata keçirilir.

Mayın 30-da Azərbaycanın müstəqilliyini elan etməsi haqqında dünyanın əsas siyasi mərkəzlərinə radio-teleqrafla məlumat verildi. İyunun 4-də Azərbaycanın nümayəndə heyəti Batumda Osmanlı dövləti ilə daimi sülh və dostluq münasibətləri haqqında müqavilə imzaladı.

Sentyabrın 15-də Azərbaycan hərbi hissələri və türk qoşunları Nuru Paşanın rəhbərliyi ilə Bakını azad etdilər. Azərbaycan hökuməti sentyabrın 17-də Bakı şəhərinə köçdü.

1919-cu ilin aprelində Bakıda ingilis general-qubernatorluğu ləğv edildi, ingilislər Paris Sülh Konfransının şərtlərinə uyğun olaraq Qafqazı tərk etməyə başladılar. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransı Azərbaycanın istiqlaliyyətinin tanınması haqqında yekdilliklə qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qısa bir müddətdə normal fəaliyyət göstərən dövlət aparatı yaratmağa, 20-dən çox dövlətlə diplomatik əlaqələr qurmağa nail oldu. Yeni yaranmış dövlət fəaliyyəti dövründə "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideyası uğrunda mübarizə apardı.

Hökumətin Gəncədəki fəaliyyəti dövründə - 1918-ci il iyunun 27-də Azərbaycan dilinin dövlət dili elan edilməsi haqqında fərman imzalandı. İyunun 24-də üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı bayraq Dövlət Bayrağı kimi qəbul edildi, noyabrın 9-da isə həmin bayraq üçrəngli - mavi, qırmızı və yaşıl zolaqlardan ibarət olan bayraqla əvəz olundu.

1918-ci il avqustun 11-də ümumi hərbi səfərbərlik elan olundu və 1894-1899-cu il təvəllüdlü bütün Azərbaycan vətəndaşları hərbi xidmətə çağırıldılar. Nazirlər Şurasının qərarına uyğun olaraq 1918-ci il noyabrın 7-də Hərbi Nazirlik təsis edildi. 1920-ci ilin yanvarına artıq 30 min nəfər piyada və 10 min nəfər süvaridən ibarət ordu yaradılmışdı.

### *Azərbaycan Respublikası dövlətlərarası münasibətlər sistemində*

Müstəqil Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində fəaliyyətə başlamasının əsası İstanbul konfransında (1918-ci il) qoyulub. Gənc respublikanın dövlətlərarası münasibətlərə daxil olması olduqca çətin idi. Burada ən böyük problemlərdən biri də maddi resursların, demək olar ki, yoxluğu idi. Belə bir vəziyyətdə alternativ kimi Azərbaycan Xalq Cümhuriyyəti ilə Avropa dövlətləri arasında vasitəçiliyi Türkiyənin Avropa ölkələrindəki səfirlikləri yerinə yetirirdi.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunması ilə Azərbaycan xalqı tarixinin yeni mərhələsinin başlanğıcına qədəm qoydu. 1992-ci il martın 2-də Beynəlxalq Millətlər Təşkilatının (BMT) Baş Məclisinin 46-cı sessiyasında Azərbaycan Respublikasının bu təşkilatın üzvlüyünə qəbul olması barədə qətnamə qəbul edildi. Xalqımızın haqq səsinin dünyaya çatdırılması və obyektiv ictimai rəyin formalaşdırılması, eləcə də dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsində 1992-ci il martın 6-da Nyu-Yorkda fəaliyyətə başlayan Azərbaycanın BMT yanında daimi nümayəndəliyi mühüm rol oynadı. Həmin ilin noyabr ayında isə BMT-nin Azərbaycanda daimi nümayəndəliyi açıldı.

Azərbaycan torpaqlarının 20 faizi işğal edildi. Ermənistan ölkəmizə qarşı əsassız ərazi iddiaları və hərbi təcavüzü ilə elan etmədən müharibəyə başladı.

Belə bir şəraitdə yalnız 1993-cü ilin ikinci yarısından ümummilli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Özünün ilk andiçmə mərasimində (1993-cü il, 10 oktyabr) həmin məqama da toxunan ümummilli lider Heydər Əliyev demişdir: "Bizim xarici siyasətimiz, birinci növbədə, Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı-faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrlə Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmlətməkdən ibarətdir".

Azərbaycan Respublikasının Prezidenti kimi ilk dəfə Ümummilli Lider 1994-cü ilin sentyabrında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ problemi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmışdır.

Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verdi. 1998-ci il sentyabrın 7-8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə tarixi "Böyük İpək Yolu"nun bərpası üzrə keçirilmiş Bakı beynəlxalq konfransı və onun nəticələri Azərbaycanın xarici siyasətinin qazandığı ən mühüm nailiyyətlərindən biridir.

Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına və dinamik şəkildə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yüksək diplomatik istedadı sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyənləşdirən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirir.

Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi və mədəni proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Ölkə daxilində gedən demokratik proseslər və iqtisadi yüksəlişlə yanaşı, uğurlu xarici siyasət bu gün dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəltmiş, bu da beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaratmışdır.

Azərbaycan Respublikası müsəlman aləmində çox böyük hörmət və nüfuz qazanmışdır. İslam həmrəyliyi ilə bağlı atılan addımlar İslam Əməkdaşlıq Təşkilatı və eyni zamanda, bir çox müsəlman ölkələri tərəfindən çox yüksək qiymətləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı siyasət, yəni, həm ölkə daxilində, həm də xaricdə bu istiqamətdə Azərbaycanın həyata keçirdiyi tədbirlər İslam aləmində həmrəyliyi, əməkdaşlığı və müsəlman birliyini daha da möhkəmləndirir. Həmçinin son illərdə ölkəmizin ev sahibliyi etdiyi, eləcə də dövlət başçısının təşəbbüsü ilə keçirilən bir sıra mühüm əhəmiyyət kəsb edən tədbirlər - 2018-ci ildə VI Bakı Beynəlxalq Humanitar Forumu, VI Qlobal Bakı Forumu, Qoşulmama Hərəkatının Xarici İşlər Nazirləri Konfransı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının iclası, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının Nazirlər toplantısı, Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi, 2019-cu ilin martında VII Qlobal Bakı Forumu və s. Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəltmişdir.

Son illər Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda, beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır. 2019-cu il oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirildi və ölkəmiz bu təşkilatda sədrliyə başladı. Bunun davamı olaraq, oktyabrın 25-26-da Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçısı, həmçinin beynəlxalq təşkilatların rəhbərləri, ümumilikdə isə 160-a yaxın ölkə və beynəlxalq təşkilatın nümayəndələri iştirak etdilər. Ümumilikdə özündə 120 ölkəni birləşdirən və BMT-dən sonra dünyada ən böyük siyasi təsisat olan Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşünün Prezident İlham Əliyevin sədrliyi ilə Bakıda keçirilməsi, 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi ölkəmizin böyük diplomatik uğurudur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesində Azərbaycan dövləti və Prezident İlham Əliyev, ilk növbədə, sülh variantına üstünlük verir. Lakin Prezident İlham Əliyev Azərbaycan xalqı və dövlətinin bu işğal, etnik təmizləmə siyasəti və torpaqlarımızın müvəqqəti olaraq itirilməsi ilə heç vaxt barışmayacağını bildirməklə yanaşı, öz torpaqlarımızı azad etmək üçün tam əsasımızın olduğunu və bunun beynəlxalq hüququn normaları ilə təsdiq edildiyini vurğulayıb.

Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də Rusiya Federasiyasının Soçi şəhərində "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik toplantısında, eləcə də oktyabrın 11-də MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışları zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən və tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirməyən bəzi fikirlərə və əsassız iddialara tam aydın, konkret şəkildə cavab verdi. Bununla da dövlətimizin başçısı Ermənistanın işğalçılıq siyasəti və faşist ideologiyası yürütdüyünü dünyaya bir daha bəyan edərək, Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi kimi tanındığını diqqətə çatdırdı.

Bütün bunlar onu deməyə əsas verir ki, bu gün Azərbaycanın dünya miqyasında nüfuzu xeyli artmışdır. Bu da ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirmişdir. Ümumilikdə, Azərbaycan diplomatiyası müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən çox uğurla və dinamik şəkildə inkişaf etdirilir. Bu baxımdan, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və tarixi nailiyyətlərlə zəngin olan bu uğurlu xarici siyasətin təməlində Azərbaycanın milli maraqlarının hər zaman üstün tutulduğunu əminliklə söyləmək olar.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Milli qəhrəmanlarımız*

# “Qəhrəmanların döyüş yolu bizlər üçün örnəkdir”




"N" hərbi hissəsinin düşmənlə üzbəüz mövqedə yerləşən bölməsinin dayaq məntəqəsində Azərbaycanın Milli Qəhrəmanı şəhid İsgəndər Aznaurovun şərəfinə salınmış xatirə guşəsi diqqətimizi cəlb etdi. Zabit Sərxan Bayramov şəxsi heyəti bu guşənin ətrafına yığaraq "Topçu İsgəndər"in həyat yolu ilə bağlı hərbi qulluqçuları məlumatlandırırdı: “Peşəkar hərbçi kimi düşmənin mühüm hərbi bazalarının məhv edilməsində yüksək rəşadət göstərən mahir topçumuz gedən döyüşlərdə düşmənin dörd topunu dəqiq atəş zərbələri ilə sıradan çıxarır. Nəticədə düşmən xeyli itki verərək geri çəkilir. 1993-cü il aprelin 18-də baş leytenant İsgəndər Aznaurov gərgin döyüşdə qəhrəmancasına şəhid olur. Onun Qarabağ müharibəsində göstərdiyi şücaətlər ulu öndər Heydər Əliyev tərəfindən layiqincə qiymətləndirildi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 15 yanvar 1995-ci il tarixli Fərmanı ilə baş leytenant Aznaurov İsgəndər Söhrab oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü. Azərbaycanımız üçün yaşamış igid oğullarımızı unutmamalıyıq. Onların hər birinin həyat və döyüş yolu bu gün bizlər üçün örnəkdir, nümunədir. Biz özümüzdən sonra gələn gənc nəslə həqiqətləri çatdırmalı, qəhrəmanlarımızı tanıtmalıyıq. Azərbaycan gənci bilməlidir ki, onun tarixini qorxmaz cəngavərlər öz qanı ilə yazıblar. Bu gün üzərində gəzdiyimiz Vətən torpağının o igidlərin qanı ilə suvarıldığını dərk etməli, o torpağın hər qarışını göz bəbəyimiz kimi qorumalıyıq".

Zabit fikrini tamamladıqdan sonra Vətən müdafiəçiləri ilə həmsöhbət olduq. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Məhəmməd Hüseynov qeyd etdi ki, vətənpərvərlik hissinin qarşısında heç bir qüvvə tab gətirə bilməz. "Vətən sevgisi ən ali sevgidir. Bu sevgi anaya olan sevgi ilə bir tutulur. Milli Qəhrəman İsgəndər Aznaurovun döyüş yolunu təkrarlamaq istəyində olan oğullarımızın sayı bu gün ordumuzda kifayət qədərdir. Onların hər biri düşməni məğlub edəcəyimiz günün arzusundadır. Bölməmizin şəxsi heyəti ilə söhbət zamanı komandirlərimizlə birlikdə Vətəni qorumağın ən ümdə vəzifə olduğunu qeyd edirik".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elşən Qarayev ürəyi Azərbaycan ilə döyünən oğullarımızın tariximizdə qəhrəmanlıqları ilə iz qoyduqlarından danışdı. "Dövlətimiz və xalqımız hər zaman qəhrəman oğullarına yüksək qiymət verib. Torpaqlarımızın bütövlüyü uğrunda xeyli sayda oğullarımız olub ki, döyüş meydanında bir qəhrəmantək savaşıblar. İsgəndər Aznaurov, Albert Aqarunov və digər döyüşçülər olub ki, canını bu Vətənə fəda ediblər. Onların hər birinin ruhları qarşısında baş əyirik. Xalq onların adını əbədiləşdirib. Hər birinin xidməti dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Hazırda İsgəndər Aznaurovun adına yaşayış məntəqəsi, küçə və məktəb var. Bu dövlətin qəhrəmanına verdiyi dəyərdir. Vaxtilə "Topçu İsgəndər"in döyüşdüyü səngər bu gün "İsgəndər qalası" adlanır ki, bu qala Vətənimizin müdafiəçiləri tərəfindən layiqincə qorunur. Həmçinin Milli Qəhrəman İsgəndər Aznaurovun xatirəsinə müxtəlif tədbirlər təşkil olunur ki, bu qəbildən olan tədbirlər gənclərimizin vətənpərvər ruhda tərbiyəsində atılan zəruri addımlardandır. Qəhrəmanlarımızın xatirəsinə həsr olunan silsilə tədbirlər ordumuzdan da yan keçmir. Bu da şəxsi heyətin həm döyüş ruhuna, həm də mənəvi-psixoloji vəziyyətinə müsbət təsir göstərir. Azərbaycan əsgəri bu gün İsgəndər Aznaurovun simasında hər bir qəhrəmanımızın və şəhidimizin qisasını düşməndən artıqlaması ilə almaq iqtidarındadır".



**Baş leytenant Fuad CƏFƏROV, "Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində nizamnamədənkənar münasibətlər zəminində daha iki əsgər xəsarət alıb.

Altıncı dağatıcı alayın 3-cü taborunda xidmət edən hərbi qulluqçular Armen Antonyan və Valerik Avaqyan arasında qarşılıqlı mübahisə sonradan davaya səbəb olub. Dava nəticəsində hər ikisi müxtəlif bədən xəsarətləri alıb. Daha ağır xəsarətlər alan hərbi qulluqçu V.Avaqyan Xankəndidə hərbi hospitala yerləşdirilib.

Komandanlıq faktı ictimaiyyətdən gizlətsə də, hərbi polis tərəfindən açılan cinayət işi üzrə araşdırma davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birinin ön xətt mövqeyində xidmət edən əsgərin halı pisləşdiyi üçün təcili tibbi yardım maşını çağırılıb.

Ağdərədən olan erməni hərbi qulluqçu Artur Ahdabedyan 48-ci postda xidmət apararkən özünü pis hiss edib. Bu barədə hərbi hissənin zabiti İ.Şakaryana məruzə edilib və təcili tibbi yardım maşını çağırılıb.

Həkimlərin müayinəsi nəticəsində məlum olub ki, hərbi qulluqçu A.Ahdabedyan bir neçə gün əvvəl təhlükəsizlik qaydalarının pozulması nəticəsində sol ayağından xəsarət aldığını gizlədib. Lakin sol ayağı şişdiyindən və ağrılara dözə bilmədiyindən hadisə barədə məlumat verib. Cərrahiyyə əməliyyatı keçirən əsgər uzun müddət hərbi müalicə müəssisəsində qalmaq məcburiyyətindədir.

Hadisə komandanlıq tərəfindən ictimaiyyətdən gizlədilsə də, hərbi polis araşdırması davam etdirir.

* * *

İşğal edilmiş Ağdərə yaşayış məntəqəmizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmət edən hərbi qulluqçu özünə xəsarət yetirib.

Ermənistan ordusunun hərbi hissələrindən birinin hərbi qulluqçusu Roland Hovanisyan sevgilisi ilə telefonla danışdıqdan sonra tabeliyində olan silahdan atəş açaraq özünə xəsarət yetirib. Təsadüf nəticəsində sağ qalan erməni hərbçisinə tibb təlimatçısı ilk yardım göstərdikdən sonra o, hospitala təxliyə olunub.

Komandanlıq faktı ictimaiyyətdən gizlətsə də, hərbi polis tərəfindən "qəsdən özünə xəsarət yetirmə" faktı üzrə cinayət işi açılıb, araşdırma aparılır.

* * *

İşğal edilmiş Madagiz yaşayış məntəqəmizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birinin hərbi qulluqçusu xidmət yoldaşını vəhşicəsinə döyüb.

Əsgər yoldaşlarından biri hərbi qulluqçu Norik Avakyandan siqaret istəyib. Siqaret verməkdən imtina etdiyinə görə N.Avakyan xidmət yoldaşı tərəfindən amansızlıqla döyülüb. Hadisəni ört-basdır etmək üçün əsgər taborun tibb məntəqəsində gizlin müayinə və müalicə edilir.

Komandanlıq faktı ictimaiyyətdən və hüquq-mühafizə orqanlarından gizlədir.

* * *

İşğal edilmiş ərazilərimizdə yerləşdirilmiş Ermənistan silahlı qüvvələrinin hərbi hissələrindən birinin hərbi qulluqçusu xidmətdən boyun qaçırmaq məqsədilə özünü dəliliyə vurub.

Hərbi xidmətə çağırılaraq Ağdam rayonunun işğalda olan yaşayış məntəqəsindəki hərbi hissəyə göndərilən əsgərin psixi xəstəliyi olduğu barədə komandirə məlumat verilib. Hərbi hospitala psixiatr qəbuluna göndərilən Q.Xaçatryanın xidmətdən yayınmaq məqsədilə qəsdən özünü xəstəliyə vurduğu barədə rəy verilib.

**Hazırladı: İsa ELDAROĞLU**

*Ovqat*

# Qələbə ovqatlıdı bu payızın gəlişi



*Payız gəlir... Qızmar yaydan sonra payızın ləngərli gəlişi ovqatımıza ovqat qatır. Payız həm həyatımıza, həm də təbiətə bənzərsizlik gətirir. Mənə elə gəlir ki, payızın rəngləri başqa fəsillərdən daha gözəl, daha füsunkardır.*

Payız fəsli mənə hələ illərin o üzündən bəri sirli-sehirli görsənib. - Payız küləyi və soyuğu ilə qısa vaxt ərzində təbiətin əynindən yaşıl donunu çıxarmağı bacarır. Yayda coşub-çağlayan, gözəlliyi gözəlliyə qundaqlayan təbiət çarəsizliklə payıza təslim olur. Payız ovqatlı günlərdə inanıram ki, ermənilər də Azərbaycan əsgərinin döyüşdə şücaətindən qorxuya düşəcək, geri çəkiləcək.

Payızın gəlişini ən əvvəl ağaclar hiss edir. Onlar soyuğun nəfəsini duyan kimi müdrikcəsinə fikrə gedirlər. Gücünü artıran ordumuzun zabit və əsgərləri bu gözəl payız günlərində işğala son qoyacaq, ağacların da eyni açılacaq.

Payız özü ilə əsgərlərimizə güc gətirir, onların döyüş əzmini, qələbə ruhunu artırır, mübarizliyini, vətənpərvərliyini, döyüş hazırlığını daha da yüksəldir. Bu hazırlığın sonda Böyük Qələbə ilə bitəcəyinə hamımızda əminlik hissi oyadır. Bəlkə buna görə də payız fəslinin gəlişini həsrətlə gözləyirik. Bu payız arzularımız çiçək açacaq.

Yaradıcı adamlar bu fəsildə daha gözəl əsərlər yazırlar. Həmin günlərdə yazılan əsərlərin çoxunda payız rəngi, payız ilıqlığı, payız ovqatı var. Bu payız yaradıcı insanlar Azərbaycan əsgərinin qəhrəmanlığından, igidliyindən, qazanacağı Böyük Qələbədən dəyərli əsərlər yazacaq, Azərbaycan əsgərinin, zabitinin qəhrəmanlıqla dolu obrazını yaradacaqlar. Azərbaycan əsgərinin qəhrəmanlığı sözün qüdrəti, sözün gücü ilə tarixləşəcək. Gələcək nəsillər bu qəhrəmanlıqdan nümunə götürəcəklər.

Qızılı payız gəlişi ilə neçə-neçə əsgər, zabit ailəsinə sevinc bəxş edəcək. Evlərdən körpə qığıltısı, ana laylası eşidiləcək. Bu payız günlərində analarımız körpələrinin boyunu sevə-sevə onlara Azərbaycan əsgərinin döyüşlərdəki qəhrəmanlığından, igidliyindən danışacaq. Bu payız Azərbaycan əsgərinin gücündən, qüdrətindən nağıllarımız da, hekayələrimiz də qəhrəmanlaşacaq, igidləşəcək. Körpələrimiz də bu nağılları, hekayələri dinlədikcə qəhrəman kimi böyüyəcəklər.

Payız gəlir...

Gələn bu payız torpaqlarımızın müdafiəsində dayanan zabit və əsgərlərimizin qollarına güc-qüvvət gətirir, ovqatlarının üstünə ovqat ələyir. Bu payız qələbə ovqatlıdır. Xalqımıza Böyük Qələbənin sevincini yaşadacaq...

**Vahid MƏHƏRRƏMOV, "Azərbaycan Ordusu"**

*Asudə vaxt*

# “Hər əsgərin öz maraq dünyası var”



Müasir dövrdə Azərbaycan Ordusunda əsgərlərin sağlam həyat tərzi və asudə vaxtlarının səmərəli təşkili təlim-tərbiyə sisteminin prioritet istiqamətlərindən biridir. Gün ərzində şəxsi heyətin özünü inkişaf etdirmək və istirahət etmək üçün nəzərdə tutulan bu saatlara zabit və gizirlər tərəfindən xüsusi diqqət ayrılır. Tədris ili boyunca dərs oxuyan, bütün təlim və məşqlərdən keçən əsgərlər hər zaman istirahətə ehtiyac duyurlar. Ona görə də əsgərlərin asudə vaxtının səmərəli təşkili üçün keçirilən tədbirlər mühüm əhəmiyyət kəsb edir. Asudə vaxt günə maraq qatmaqla yanaşı, şəxsi heyətin də maraqlarını kəşf edə bilmək üçün yaxşı fürsətdir.

Gördüklərimiz deməyə əsas verir ki, "N" hərbi hissənin ön xətdə yerləşən bölməsində də şəxsi heyətin asudə vaxtının səmərəli təşkili məqsədilə yüksək şərait yaradılıb.

"Hərbi hissəmizdə əsgərlərin asudə vaxtlarının səmərəli təşkili biz zabitlərin nəzarəti altında baş tutur", - deyə zabit Rəşad Əliyev söhbətə vəsilə oldu. - Ümumiyyətlə, əsgərləri istəmədikləri fəaliyyətə məcbur etmək, yaxud sevdiyi fəaliyyətdən uzaq tutmaq düzgün deyil. Çalışmaq lazımdır ki, onlar sevdikləri fəaliyyətlə məşğul olsunlar. Onların sevdiyi fəaliyyətlə məşğul olmaları Azərbaycan Ordusuna da öz töhfəsini verir. Belə ki, bizlər tərəfindən əsgərlər öz qabiliyyətinə uyğun olaraq məşğuliyyət sahələrinə istiqamətləndirilir. Bu da əldə edilən uğurlarda böyük rol oynayır. Əsgərlərin asudə vaxtlarının səmərəli təşkili zabitlərin bir tərəfdən mənəvi borcudursa, digər tərəfdən ölkə və ordu qanunları ilə bizim üzərimizə qoyulmuş bir vəzifədir ki, buna sosial məsuliyyət deyilir. Komandir heyəti bu vəzifələri düzgün yerinə yetirmədikdə həm qanun, həm də cəmiyyət qarşısında məsuliyyət daşıyır.

Zabit Sərxan Bayramov isə qeyd etdi ki, hər bir müstəqil dövlətin ordusunun inkişafında yüksək bilik və bacarığa, müstəqil düşüncəyə malik, öz Vətənini böyük məhəbbətlə sevən yaradıcı təfəkkürə yiyələnmiş milli və bəşəri, o cümlədən ordu dəyərlərinə hörmət edən əsgərlərin formalaşdırılması vacib amillərdən biridir. "Əsgərlərimiz gün ərzində dərs prosesi ilə yanaşı, idmanla məşğul olur, kitab, qəzet, jurnal oxuyur, tarixi abidələrlə yaxından tanış olur, igid oğul və qızlarımız haqda məlumat alır, şahmat və dama oynayır, rəsm çəkir, musiqi dinləyir, bir sözlə, asudə vaxtlarını səmərəli keçirirlər. Gördüyünüz kimi, bu gün əsgərlərimiz asudə vaxtlarını şahmat və dama oyununa həsr ediblər. Boş vaxtını şahmat oynayaraq keçirən əsgərin tez qərar qəbul etmək qabiliyyəti də inkişaf edir. Bir həmlənin oyunun gedişinə necə təsir edə biləcəyini, yaranan yeni vəziyyətin necə nəticələnəcəyini, səbəb-nəticə münasibətini əsgər şahmat oyununda daha yaxşı anlayır və qavrayır. Həmçinin əsgərə qələbə əzmini də bu oyun vasitəsilə daha tez aşılaya bilirik. Bu isə Azərbaycan Ordusunun gələcək qələbələrində də yardımçımız olacaq.

Əsgər Fədai Eldənizoğlu bildirdi ki, asudə vaxtlarında şahmat oynamağı və həmin saatları dostları ilə keçirməyi sevir. "Hər əsgərin öz maraq dünyası var. Həmin maraq dünyasına uyğun olaraq kimi musiqiyə qulaq asır, kimi kitab mütaliə edir, kimi qəzet oxuyur, kimi futbol, voleybol, basketbol oynayır. Bəzən birlikdə hansısa kitabın və ya kinonun müzakirəsini də edirik. Asudə vaxtlarımızda idmanla da məşğul oluruq. Azərbaycan Ordusunda əsgərlərin asudə vaxtının səmərəli təşkili məqsədilə xüsusi idman şəraiti yaradılıb, fiziki tədbirlərin həyata keçirilməsinə xüsusi dəstək verilir. Orduda bölmələr arasında keçirilən yarışlarda yaxından iştirak edirik, əsgərlərlə sıx əlaqə yaradırıq. Həmçinin müxtəlif mədəniyyət ocaqlarında keçirilən tədbirlərdə, teatrlarda iştirak edirik, əyləncəli tamaşaları izləyirik".

Əsgər Məhəmməd Allahverdiyev söhbətə qoşularaq bildirdi ki, maraq dairəmizin müxtəlif olmasına baxmayaraq, içimizdə əvəzedilməz, dəyişməz, əbədi, müqəddəs Vətən sevgisi var. Başa düşürük ki, müharibə şəraitindəyik. Hələ ki, müharibə başa çatmayıb, bu müharibə torpaqlarımız işğaldan azad ediləndən sonra başa çatacaq. Ona görə də döyüş zamanı əsgərlərimizin qələbəsinə vəsilə olmaq, torpağını qorumaq və azad etmək Azərbaycan əsgərinin ən böyük vəzifə borcudur. Bu baxımdan bugünkü asudə vaxtı Qələbəyə doğru atılan bir addım hesab etmək olar. Bu yolda Azərbaycan əsgəri qürurlu və cəsarətli, Azərbaycan zabiti isə əyilməz və mətindir!

**Mayor
Məhəmməd ƏLİYEV,
"Azərbaycan Ordusu"**

*Düşüncələr*

# Bu qələbəyə bəşəri qələbə deyəcəyik!

*Ürəyin keçilməz, fəth edilməyən, insan ruhu dəyməyən, gözlə təmasda olmayan səngərləri var. İllərdir işğal olunmuş torpaqlarımıza görə qəlbimiz yaralıdır, zaman-zaman Vətəni müdafiə etmək naminə qurulan səngərlər sanki ürəyimizdə qərar tutub.*

Torpaq... Bir ovuc Vətən torpağı... İllərdir həsrətini, intizarını çəkdiyimiz torpaqlar yenə sinəsində doğma övladlarının addım səslərini eşidəcəyi günü gözləyir. İntizarını çəksək də, bu yolun sonunda işıq görünür... Bu işıqdır bizi xoşbəxt gələcəyə aparan. Xoşbəxt gələcək naminə Qələbəyə səsləyən.

"İnsanı ölüm yox, torpaq gözəlləşdirir", - deyib atalarımız. Torpaq sirdir, müəmmadır, torpaq həyatdır. Məncə, insan torpaq xislətlidir. Bəlkə də yaranışın ilkin çağlarından insanların bir adı olub: "Torpaq!"

Müharibənin əlifbası ilə şeir də, mahnı da, məktub da yazmaq mümkündür. Ancaq müharibənin riyaziyyatı ilə sadəcə susmaq olar. Bu hesablamada adlar, soyadlar, üzlər, cizgilər yoxdur. Qupquru rəqəm meydanı olan müharibədə çox şeyləri itirdik. Torpağımızı, insanlarımızı, sevinc dolu keçmişimizi, elimizi, obamızı, ata ocağımızı... Təəssüf, bütün dünyaya səhər eyni cür açılmadı. Hamı yuxudan eyni cür oyanmadı...

Şəhid övladı həm kədərli, həm də qürurludur. Ancaq o, anlayır ki, ölüm və şəhidlik eyni anlayış deyil. Biz yaşayaraq da ölə bilərik, susaraq, ağlayaraq, kədərlənərək də. Hətta iki cümlə sözdən belə ruhu tapşırmaq mümkündür. Şəhidlik isə başqa məqamdır. O, ölümlə müqayisə oluna bilməyəcək qədər müqəddəsdir. Şəhidlərin güllə yarası almış bədənləri torpağa tapşırılsa da, ruhları səmalardan bizə boylanır. Səbirsizliklə qisas gününü gözləyirlər.

Həyatda nə varsa, bir gün hamısı itib əlçatmaz olacaq. Bu, qanundur. Ancaq vaxtsız itki insan ürəyini dağlayır, sızladır. Təəssüflər olsun ki, illərdir Azərbaycanın sülh çağırışına işğalçı ölkə Ermənistan cavab vermir. Bu sülh düşmən ölkənin xilas yolu ola bilərdi. Ancaq onlar məhv olmağı seçdilər.

Bu ilin iyulunda düşmən Tovuz rayonu istiqamətindən dövlət sərhədlərimizi pozdu. Azərbaycan Ordusunun şəxsi heyəti bu hücumun qarşısını qətiyyətlə aldı. Sərhəd boyunca düşmənin neçə-neçə dayaq məntəqəsi dağıdıldı, döyüş texnikası, canlı qüvvəsi məhv edildi. İctimaiyyət bu qələbəni 2016-cı ilin aprelində qazanılan qələbənin davamı bildi. Dünyanın aparıcı dövlətləri də, Ermənistan da, onun havadarları da gördülər ki, ordusu dünyanın ən güclü orduları sırasında olan Azərbaycan torpaqlarını işğaldan azad etməyə qadirdir.

Bu döyüş həm iyul döyüşlərinin davamı olacaq, həm də son döyüş. Torpaqlarımızın işğaldan azad edilməsi ilə tamamlanacaq son döyüş.

Neçə il əvvəl tərxis olunan əsgərlərdən biri demişdi: "Ürəyimi bu dağlarda qoyub gedirəm". Siz də tərxis olunanda mahiyyəti bu kəlmələrin mahiyyətiylə səsləşən fikir deyibsiniz. İndi bir vaxtlar ürəyinin söykəndiyi, ürəyiniz söykənən səngərlərdən döyüş üzünə çıxıbsınız. Qollarınıza qüvvət, Vətən oğlu! Döyüşün! Qələbə üçün döyüşün! Xalq əmindir ki, qazanacağınız qələbə Azərbaycanı sevənlərin də qələbəsi olacaq. Ona görə bu qələbəyə bəşəri qələbə deyəcəyik!

**Hüsniyyə İDRİSOVA,
BSU-nun tələbəsi**

*Hərbi texnikalar, silahlar*

# Rusiya istehsalı olan MiQ-31 qırıcısı





Rusiya istehsalı olan MiQ-31 qırıcısı MiQ-25 təyyarəsinin sxemi əsasında hazırlanıb. 1979-cu ildən seriyalarla istehsal olunur. "Sokol" NAZ müəssisəsində istehsal olunan MiQ-31 nəqliyyat platformasıdır və müxtəlif yükləri A nöqtəsindən B nöqtəsinə çatdırmağa qadirdir. Modernləşdirilməsi zamanı onun imkanları və davamiyyəti nəzərə alınıb. İstismar müddəti 30 ilə qədərdir. Onun elektron və bort cihazlanması qeyri-adi tezliklə dəyişilə bilir. MiQ-31-in əsas hissəsi bort radiolokasiya sistemidir. Orta yüksəklikdə uçur. Modernləşdirilməsi zamanı müasir fazalı antena çərçivəli "Sazlon-M" radiolokasiya sistemi ilə təchiz edilib. Onu da qeyd etmək olar ki, tamamilə "mərkəzi şəbəkə" müharibəsinə tam hazırdır, "Rubej" yerüstü avtomatlaşdırılmış idarəetmə sistemi ilə işləyə bilir və öz fəaliyyətini digər döyüş obyektləri ilə koordinasiya edir. Məsələn, qırıcının heyəti uzaqda yerləşən hədəfi aşkar edən zaman radiolokasiya sistemi vasitəsilə çoxfunksiyalı qırıcıların koordinatlarını müəyyən edə bilir. Bununla belə bir qırıcının döyüş meydanında 500 kilometrlik məsafəyə nəzarət etmək imkanı var. Modernləşdirmə çərçivəsində təyyarə müasir kabinə ilə təchiz edilib. Heyəti iki nəfərdən - komandir və hücumçudan ibarətdir. Qırıcı yeni naviqasiya kompleksi ilə də təchiz edilib. Hazırda onda naviqasiya peyk sistemi və beynəlxalq enmə sistemi vardır. Onun korpusu polad və titandan hazırlanıb. Bu da təyyarəyə yüksək termodavamiyyət verir.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Oruc MUSTAFAYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 543
Nüsxə 3960